

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# Yer təki sahəsinə faydalı qazıntıların çıxarılması, faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuları tikmək və istismar etmək məqsədilə «Dağ-mədən ayırması» statusunun verilməsi Qaydalarının təsdiq edilməsi haqqında

# Qərar № 1

***Bakı şəhəri, 9 yanvar 1999-cu il***

«Yerin təki haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 27 aprel tarixli 701 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. «Yer təki sahəsinə faydalı qazıntıların çıxarılması, faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuları tikmək və istismar etmək məqsədilə «Dağ-mədən ayırması» statusunun verilməsi Qaydaları» təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***A.RASİ-ZADƏ***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 yanvar 1999-ci il, № 1, maddə 42) («VneshExpertService» LLC).***

***9 oktyabr 2000-ci il tarixli, 185 nömrəli; 22 fevral 2001-ci il tarixli, 38 nömrəli; 7 yanvar 2005-ci il tarixli, 5 nömrəli; 13 sentyabr 2006-cı il tarixli, 207 nömrəli; 13 dekabr 2007-ci il tarixli, 200 nömrəli qərarlara əsasən dəyişikliklərlə («VneshExpertService» LLC).***

---

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*

*1999-cu il 9 yanvar tarixli 1 nömrəli qərarı ilə* ***təsdiq edilmişdir.***

# Yer təki sahəsinə faydalı qazıntıların çıxarılması, faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuları tikmək və istismar etmək məqsədilə «Dağ-mədən ayırması» statusunun verilməsi Qaydaları

## *1. Ümumi müddəalar*

1.1. Bu Qaydalar «Yerin təki haqqında» Azərbaycan Respublikası Qanunu və «Yerin təki haqqında» Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 27 aprel 1998-ci il tarixli 701 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası ərazisində faydalı qazıntıları çıxarmaq, faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuları tikmək və istismar etmək hüququ verən xüsusi razılığa (lisenziyaya) *və ya icazəyə* müvafiq olaraq yer təki sahəsinə «Dağ-mədən ayırması» statusu verilməsini müəyyən edir.

Faydalı qazıntıların çıxarılması, eləcə də faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların tikilməsi və istismar edilməsi məqsədilə hüquqi və fiziki şəxslərin (bundan sonra yer təki istifadəçilərinin) xüsusi razılığa *və ya icazəyə* əsasən istifadəsinə verilən yer təkinin hüdudları — «Dağ-mədən ayırması» statusu adlanır (bundan sonra «Dağ-mədən ayırması») və akt şəklində *Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi* tərəfindən verilir (1 nömrəli əlavə).

1.2. Bu Qaydalara əsasən, *Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi* tərəfindən yer təki istifadəçilərinə faydalı qazıntı yataqlarının çıxarılmasına və faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yer təki sahələrinə verilən «Dağ-mədən ayırması»nın ilkin hüdudları, yerin təkindən istifadəyə xüsusi razılıq (lisenziya) *və ya icazə* verilərkən müəyyənləşdirilir. Faydalı qazıntıların çıxarılması və faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan işlərin texniki layihəsi hazırlandıqdan, dövlət ekspertizasının müsbət rəyi alındıqdan, *Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi* ilə razılaşdırıldıqdan sonra xüsusi razılığa *və ya icazəyə* əsasən «Dağ-mədən ayırması»nın hüdudlarını müəyyənləşdirən sənədlər (sahənin hüdudlarının koordinat cədvəli, planı və səciyyəvi kəsilişlər) xüsusi razılığa *və ya icazəyə* daxil edilir və onun ayrılmaz tərkib hissəsi sayılır. Yer təki istifadəçiləri eyni tipli və kiçik sahədə istismar olunacaq faydalı qazıntı yataqlarının (kərpic və örtük materialı istehsalı üçün gil, əhəngdaşı, qum, çınqıl və s.) işlənməsinə «Dağ-mədən ayırması» statusu aldıqda Dövlətdağmədəntexnəzarət Komitəsinə faydalı qazıntı yataqlarının işlənməsi layihəsi əvəzinə «Dağ işlərinin inkişaf planını» təqdim edə bilərlər.

1.3. Yer təki istifadəçiləri verilən «Dağ-mədən ayırması»ndan yalnız özləri istifadə edə bilərlər. «Dağ-mədən ayırması» sahibinin təsisçisi olduğu hüquqi şəxslərə, «Dağ-mədən

ayırması»nın sahibi ilə birgə fəaliyyət, o cümlədən onunla əməkdaşlıq barədə bağlanmış müqaviləyə əsasən fəaliyyət göstərən başqa şəxslərə şamil edilmir.

1.4. «Dağ-mədən ayırması» faydalı qazıntılar çıxaran müəssisələrə, həmin müəssisələrin tikintisinə qədər, yenidən qurulmasına və genişləndirilməsinə isə «Dağ-mədən ayırması»nın alınmasına ehtiyac olarsa, həmin işlərə başlananadək rəsmiləşdirilməlidir.

1.5. Yer təki istifadəçilərinə «Dağ-mədən ayırması»nın verilməsi torpaq sahiblərinin razılığı alındıqdan sonra verilir.

1.6. Faydalı qazıntı çıxaran yer təki istifadəçiləri, işlənmiş dağ qazmalarında, yaxud yer təkinin bir hissəsində yeraltı qurğuların tikilməsi, istismarı və obyektlərin yerləşdirilməsi üçün, faydalı qazıntıların çıxarılmasına «Dağ-mədən ayırması»nın olmasından asılı olmayaraq, göstərilən işlərə başlamazdan əvvəl bu Qaydalara uyğun olarq «Dağ-mədən ayırması» almalıdırlar.

1.7. Ləğv, yaxud konservasiya olunmuş, ya da fəaliyyətdə olan faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların yerləşdirilməsinə «Dağ-mədən ayırması» obyektləri yaratmaq hüququ verən xüsusi razılığa (lisenziyaya) *və ya icazəyə* müvafiq olaraq *Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi* tərəfindən verilir.

1.8. «Dağ-mədən ayırması» olmadan və yaxud onun hüdudlarından kənarda faydalı qazıntıların çıxarılması və faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan qurğuların tikilməsi və ya istismarı Azərbaycan Respublikasının «Yerin təki haqqında» Qanunu ilə qadağan olunur.

1.9. Faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların istifadə istiqamətləri dəyişdikdə «Dağ-mədən ayırması» bu Qaydalara uyğun olaraq yenidən alınmalıdır.

1.10. Yer təki istifadəçilərinin adı dəyişdikdə xüsusi razılıq *və ya icazə* yenidən tərtib edilir və xüsusi razılığa*və ya icazəyə* müvafiq olaraq yalnız «Dağ-mədən ayırması» statusu aktındakı və topoqrafik planın surətinin üstündəki adlar dəyişdirilir və yenidən qeydiyyatdan keçirilir.

## *2. Dağ-mədən ayırması layihəsinin məzmunu*

2.1. Yer təkinin istifadəyə verilməsi üçün «Dağ-mədən ayırması» layihəsi izahedici qeyddən və qrafik materiallardan ibarət olmalıdır.

Layihənin izahedici qeydində «Dağ-mədən ayırması»nın alınmasının məqsədi və onun zəruriliyinin əsaslandırılması göstərilməklə, aşağıdakılar öz əksini tapmalıdır:

2.1.1 müəssisənin layihələndirilməsini həyata keçirən və «Dağ-mədən ayırması» layihəsini hazırlayan təşkilatın adı və ünvanı;

2.1.2 «Dağ-mədən ayırması»nın ərazisi haqqında ümumi məlumatlar (coğrafi yerləşməsi, kənd təsərrüfatı və meşə sahəsinin xüsusiyyətləri, sahənin tikilmə dərəcəsi, istifadə olunması və s.);

2.1.3 yatağın qısa geoloji xüsusiyyətləri (layların, filiz cisimlərinin, damarlarının və başqalarının ölçüləri və yatım elementləri);

2.1.4 yatağın işlənməsinin dağ-geoloji və hidrogeoloji şəraiti, yanaşı «Dağ-mədən ayırması» haqqında ümumi məlumatlar;

2.1.5 yatağın öyrənilmə dərəcəsi, kəşf və təsdiq olunmuş və həmçinin əməli surətdə nəzərə alınmış əsas və onlarla birlikdə yatan ehtiyatların miqdarı, keyfiyyəti, kateqoriyaları, maddi tərkibi, eləcə də yataq açıq üsulla işlənərsə açılış işləri haqqında məlumat;

2.1.6 «Dağ-mədən ayırması» sərhədlərinin əsaslandırılması;

2.1.7 mineral xammalın çıxarılması və gələcəkdə onun təkrar emalı vaxtı kompleks istifadə olunması tədbirləri;

2.1.8 Azərbaycan Respublikasının faydalı qazıntı ehtiyatlarını təsdiq edən orqanının Protokolundakı tədbirlər;

2.1.9 «Dağ-mədən ayırması»nın sərhədləri daxilində təqdim olunmuş dağ-qrafik materiallar (geoloji xəritələr, kəsilişlər, sənədlər və topoqrafik planların surətləri) qüvvədə olan qaydaların və metodik göstərişlərin tələblərinə uyğun olaraq təqdim olunan müddətə bütün göstəriciləri özündə əks etdirməlidir.

2.1.10 topoqrafik planın surətinin miqyası təsvir olunan sahənin ölçülərindən, faydalı qazıntının növündən və təyinatından asılı olaraq 1:5000 kiçik olmamalıdır. Geniş ərazi əhatə olunduqda isə planın surətinin 1:5000-dən 1:25000-dək verilməsinə icazə verilir.

Kömür və yaxud yanar şist yataqlarının işlənməsi üçün kəşfiyyatı başa çatmış bütün layların 1:5000 tərtib edilmiş topoqrafik planlarının üzərində «Dağ-mədən ayırması»nın layihə hüdudları qeyd olunmalıdır.

İki və daha çox laydan ibarət olan kömür və yaxud yanar şist yataqlarının işlənməsi üçün «Dağ-mədən ayırması»nın hüdudları, sürüşmə bucaqları nəzərə alınmaqla layların künc nöqtələrinin proyeksiyası əsasında topoqrafik plan üzərində təyin edilir.

## *3. «Dağ-mədən ayırması» statusunu almaq üçün tələb olunan əsas sənədlər*

3.1. Yer təkinin istifadəyə verilən sahələrində faydalı qazıntıları çıxarmaq hüququ verən xüsusi razılığa *və ya icazəyə* müvafiq olaraq «Dağ-mədən ayırması» almaq üçün *Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin* ünvanına ərizə.

Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:

3.1.1. torpaq sahibinin yerin təkindən istifadə məqsədilə müvafiq torpaq sahəsinin ayrılmasına razılığı;

3.1.2. faydalı qazıntıların çıxarılmasına Azərbaycan Respublikasının *Ekologiya və Təbii Sərvətlər Nazirliyi* tərəfindən verilmiş xüsusi razılığın (lisenziyanın) *və ya icazənin* surəti;

3.1.3. ehtiyatları təsdiq edən orqanın faydalı qazıntı yatağının ehtiyatının təsdiq olunması Protokolunun və proqnoz ehtiyatlarının *Ekologiya və Təbii Sərvətlər Nazirliyinin* Məhəlli Ehtiyatlar Komissiyası tərəfindən balansa götürülməsi protokolunun surəti;

3.1.4. «Dağ-mədən ayırması» xüsusi təyinatlı torpaq sahələri ilə həmsərhəd olduqda torpaq istifadəçilərinin razılığı.

3.2. Faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların tikilməsi və istismarı, o cümlədən neft, qaz və digər maddə və materialların yeraltı saxlanma qurğularının, radioaktiv tullantıların, zərərli maddələrin və istehsalat tullantılarının basdırılmasına, çirkab suların axıdılmasına verilən xüsusi icazəyə müvafiq «Dağ-mədən ayırması» almaq üçün yuxarıda 3.1.1 və 3.1.4 bəndlərində təqdim olunan sənədlərə aşağıdakılar da əlavə olunmalıdır:

3.2.1. işlənmiş dağ qazmalarının konservasiya, yaxud ləğv olunması haqda *Fövqəladə Hallar Nazirliyinin* qərarının surəti;

3.2.2. «Dağ-mədən ayırması» layihəsi üzrə Azərbaycan Respublikası *Ekologiya və Təbii Sərvətlər Nazirliyinin* sahənin geoloji quruluşunun, dağ-texniki və hidrogeoloji şəraitinin öyrənilməsi dərəcəsini əks etdirən rəyi;

3.2.3. işlənmiş dağ qazmalarının, layihədə nəzərdə tutulmuş məqsədlər üçün istifadəyə yararlı olması haqqında ixtisaslaşdırılmış təşkilatların rəyi;

3.2.4. ixtisaslaşdırılmış təşkilatların zərərli maddələrin, istehsalat tullantılarının və çirkab suların zərərsizləşdirilməsinin və istifadə olunmasının texniki mümkünsüzlüyü, həmçinin zərərli maddələrin, istehsalat tullantılarının basdırılması və çirkab suların axıdılması nəzərdə tutulan ətraf süxurların və lay suları horizontları ilə bir araya sığması haqqında rəyi;

3.2.5. fəaliyyətdə olan, yaxud konservasiya olunmuş faydalı qazıntı çıxaran müəssisələrin işlənmiş dağ qazmalarının faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan məqsədlər üçün digər yer təki istifadəçisinin sərəncamına verilməsinə dağ qazmaları balansında olan yer təki istifadəçilərinin rəyi;

3.2.6. sanitariya orqanının rəyi;

3.2.7. neftin, qazın, digər maddələr və materialların saxlanması, zərərli maddələrin və istehsalat tullantılarının basdırılması və çirkab suların axıdılması nəzərdə tutulmuş yeraltı qurğuların tikilməsinin «Dağ-mədən ayırması» layihəsinə *Ekologiya və Təbii Sərvətlər Nazirliyinin*, yaxud onun yerli orqanının rəyi əlavə olunur;

3.2.8. «Dağ-mədən ayırması» layihəsi və onun əlavələri yer təki istifadəçisi tərəfindən, yaxud layihəni tərtib etməyə səlahiyyətli orqan tərəfindən təsdiq edilir;

3.2.9. «Dağ-mədən ayırması» almaq üçün təqdim olunan ərizə və bu Qaydalarda nəzərdə tutulan sənədlər *Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi* tərəfindən xüsusi kitabda qeydə alınmaqla qəbul edilir, baxılır, çatışmamazlıqlar və ya imtina üçün əsas olmadıqda qeydə alındığı gündən

başlayaraq 30 gündən gec olmayaraq «Dağ-mədən ayırması»nın verilməsi haqda qərar qəbul edilir;

- təqdim olunmuş sənədlərdə çatışmamazlıqlar aşkar edildikdə, bu barədə ərizəçiyə yazılı məlumat verilir, onlar aradan qaldırıldıqdan və sənədlər təkrar təqdim edildikdən sonra onlara 10 gün müddətində baxılır və müvafiq qərar qəbul edilir;

3.2.10. bu Qaydaların əlavələrinə uyğun olaraq (1 nömrəli əlavə) «Dağ-mədən ayırması»nın verilməsi «Dağ-mədən ayırması» aktı ilə, həmçinin topoqrafik planın surətinin yuxarı sağ küncündəki yazı ilə rəsmiləşdirilir (2—3 nömrəli əlavə).

«Dağ-mədən ayırması»nı təsdiq edən akt iki nüsxədə tərtib olunur. *Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi* rəhbərinin möhürü ilə təsdiqlənir.

Verilmiş «Dağ-mədən ayırması»nın uçotunun aparılması bu Qaydaların 4 və 5 nömrəli əlavələrində, faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan məqsədlər üçün verilmiş yer təki sahələrinin qeydiyyata alınması isə 6 nömrəli əlavədəki forma üzrə kitablarda qeydə alınaraq, faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan məqsədlər üçün yer təki sahələrinin istifadə olunması haqqında məlumatların alınması, istifadənin analiz edilməsi və s. barədə məlumat (7 nömrəli əlavə) və uçot (8 nömrəli əlavə) kartoçkaları tərtib olunaraq *Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində* saxlanılır.

3.3. «Dağ-mədən ayırması» verilməsindən aşağıdakı hallarda imtina edilir:

3.3.1. bu Qaydalarda nəzərdə tutulmuş sənədlər təqdim olunmadıqda;

3.3.2. ərizəçinin təqdim etdiyi sənədlərdə qeyri-dürüst və ya təhrif olunmuş məlumatlar olduqda;

3.3.3. qanunvericilikdə nəzərdə tutulan digər hallarda.

## *4. «Dağ-mədən ayırması»nın müddəti*

4.1. «Dağ-mədən ayırması»nın müddəti yerin təkindən istifadəyə xüsusi razılığın (lisenziyanın) *və ya icazənin* müddəti ilə tənzimlənir və xüsusi razılığın *və ya icazənin* müddəti uzadıldıqda «Dağ-mədən ayırması»nın da müddəti ona müvafiq uzadılaraq sənədlərdə dəyişikliklər aparılır.

## *5. «Dağ-mədən ayırması»nın geri alınması və ləğv edilməsi*

5.1. «Dağ-mədən ayırması»nın geri alınması və ləğv edilməsi «Yerin təki haqqında Qanun»un və bu Qaydaların tələblərinə müvafiq həyata keçirilir.

---

*1 nömrəli əlavə*

**GERB**

***Azərbaycan Respublikasının***
***Ekologiya və Təbii Sərvətlər Nazirliyi***

# Dağ-mədən ayırması
# Aktı № __

Yer təki sahəsindən yeraltı (açıq) üsulla ________________________________________

________________________________________________________________________________

*(yatağın, faydalı qazıntının, yeraltı boşluğun adı və verilmə məqsədi)*

______________________________________________________________________ məqsədilə

________________________________________________________________________ verilən

*(yer təki istifadəçisinin adı)*

dağ-mədən ayırması ____________________________________________________________

*(ərazi vahidinin adı)*

_______________________________________________________ *ərazi vahidində* yerləşir,

əlavə olunan topoqrafik planın surətinin, həmçinin ___________________________

_______________________________________________________________________ üzərində

*(geoloji xəritə və kəsilişlərin nömrələri)*

____________________________________________ künc nöqtələri ilə nömrələnmişdir.

*(künc nöqtələrinin nömrəsi)*

Dağ-mədən ayırması sahəsinin proyeksiyası yer səthinin planında

________________________________________________________________________________

*(yazı ilə)*

hektar, yeraltı boşluğun sahəsi ____________________________________________ $m^2$,

*(yazı ilə)*

həcmi isə ______________________________________________________ $m^3$ təşkil edir.

*(yazı ilə)*

Yeraltı boşluqların istismarı ilə əlaqədar dağ-mədən ayırması _______________
_________________________________________________________________ m aşağı və

*(aşağı və yuxarı sərhədlərin dərinliyi)*

yuxarı sərhədləri dərinliyində istifadəyə verilir.

Dağ-mədən ayırmasının müddəti: ___________________________________________

Bu akt ____________ nüsxədə tərtib olunmuş və Azərbaycan Respublikası *Ekologiya və Təbii Sərvətlər Nazirliyinin* reyestr kitabında «___»______________il tarixdə ___________№ ilə qeydə alınmışdır.

***M.Y.*** ***Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq orqanının rəhbəri*** ______________________

*(imza)*

---

# Yer təki istifadəçilərinin vəzifələri və məsuliyyətləri

Bu Qaydaların tələblərinə riayət edilməsində məsuliyyət, faydalı qazıntı çıxaran müəssisənin (fiziki şəxsin), «Dağ-mədən ayırması» aktının vaxtında alınmasına və rəsmiləşdirilməsinə, faydalı qazıntı çıxaran müəssisənin rəhbərinin və yaxud cavabdeh fiziki şəxsin, faydalı qazıntı çıxaran müəssisənin tikilməsinin yenidən qurulmasının və genişləndirilməsinin layihələndirilməsində-layihəçinin və onun rəhbərlərinin üzərlərinə düşür.

Faydalı qazıntı çıxaran müəssisə rəhbərləri və vəzifəli şəxsləri, həmçinin sahibkarlıq fəaliyyətini yerinə yetirən cavabdeh fiziki şəxslər «Dağ-mədən ayırması» statusunu təsdiq edən aktdan irəli gələn, yer təkinin istifadəçisi kimi vəzifə borclarını yerinə yetirmədiklərinə və «Yerin təki haqqında Qanun»un tələblərini pozduqlarına görə məsuliyyət daşıyırlar.

Yerin təkindən özbaşına istifadə edən cavabdeh vəzifəli şəxslər və sahibkarlar Azərbaycan Respublikasının *qanunvericiliyinə müvafiq məsuliyyət daşıyırlar.*

Faydalı qazıntı çıxaran müəssisədə «Dağ-mədən ayırması»nı təsdiq edən aktın «Dağ-mədən ayırması» sənədlərinin dolğun və düzgün olmasına, həmçinin «Dağ-mədən ayırması» hüdudları daxilində dağ işlərinin aparılmasında «Yer təki haqqında» Qanuna riayət olunmasına texniki nəzarəti Azərbaycan Respublikası *Fövqəladə Hallar Nazirliyi* həyata keçirir.

Faydalı qazıntı çıxarmaq üçün verilmiş «Dağ-mədən ayırması»na görə müəssisələr və fiziki şəxslər borcludurlar:

- yatağın işlənməsini faydalı qazıntı çıxaran müəssisənin təsdiq olunmuş layihəsinə, dağ işlərinin inkişaf planına, neft, yeraltı su, qaz yataqlarını isə texniki istismar qaydalarına uyğun yerinə yetirməyə;
- yataqlardan əsas və onlarla birlikdə yatan faydalı qazıntıları və sənaye əhəmiyyəti kəsb edən qiymətli komponentləri çıxarmaq üçün daha səmərəli effektliliyə malik üsulları və işlənmə sistemləri tətbiq etməyə;

- faydalı qazıntıların normadan artıq itirilməsinə və kasadlaşmasına, həmçinin yataq və lay sahələrinin seçmə yolla işlənməsinə yol verməməyə;
- faydalı qazıntı yatağının kəşfiyyatardı və istismar kəşfiyyatının, digər geoloji işlərin, markşeyder işlərinin aparılmasını, həmçinin geoloji, markşeyder və texniki sənədlərdə baxılan işləri yerinə yetirməyə;
- faydalı qazıntı ehtiyatlarının vəziyyətinin hərəkətinin, itirilməsinin və kasadlaşmasının hesabatının aparılmasını həyata keçirməyə;
- dağ işlərinin aparılması zamanı işlənən və onunla qonşuluqda yatan faydalı qazıntı yataqlarının korlanmasına yol verməməyə və Yerin təkində işlənməsi konservasiya olunmuş ehtiyatlarının mühafizəsini təmin etməyə;
- əsas faydalı qazıntı ilə birlikdə çıxarılan, müvəqqəti istifadə olunmayan faydalı qazıntıların hesabatının aparılmasına və mühafizəsinə;
- açılış süxurlarının və istehsalat tullantılarının düzgün yerləşdirilməsini təmin etməyə;
- işçilərin həyat və sağlamlığını, Yerin təkinin, ətraf təbii mühitin və digər obyektlərin mühafizəsini, bina və qurğuların dağ işlərinin zərərli təsirindən mühafizəsini təmin etməyə;
- qəzanın ləğv edilməsi planını işləyib təsdiq etməyə;
- faydalı qazıntıların keyfiyyətini və yatağın sənaye əhəmiyyətini aşağı sala biləcək, yaxud onun işlənməsini mürəkkəbləşdirəcək sulaşmadan, su toplanmasından, yanğından, neftin və qazın başqa laylara (horizontlara) sızmasından və digər amillərdən qorunmasını təmin etməyə;
- *Fövqəladə Hallar Nazirliyi* və faydalı qazıntının çıxarılmasına lisenziya *və ya icazə* verən orqanların icazəsi olmadan «Dağ-mədən ayırması» ərazisində binaların, qurğuların və digər obyektlərin tikilməsinə yol verməməyə;
- faydalı qazıntı yataqlarının işlənməsində nadir geoloji və mineraloji törəmələrin, meteoritlərin, paleontoloji, arxeoloji və digər elm və mədəniyyət üçün maraqlı olan obyektlərin aşkar edildiyi hallarda işləri dayandırmağa və marağı olan dövlət orqanlarına məlumat verməyə;
- Yerin təkinin və yatağın səmərəli və kompleks şəkildə istifadəsinə idarədaxili nəzarət həyata keçirməyə;
- dağ işlərinin aparılması konservasiya edildikdə, yaxud həmişəlik dayandırıldıqda, faydalı qazıntı çıxaran müəssisənin, yaxud onun bir hissəsinin ləğv və konservasiya işlərini həyata keçirməyə;
- Azərbaycan Respublikasının Qanunlarına uyğun olaraq faydalı qazıntı yataqlarının işlənməsi nəticəsində pozulmuş torpaq sahələrinin təhlükəsiz, həmçinin gələcəkdə istifadə edilməsi üçün yararlı vəziyyətə gətirilməsinə, Yerin təkinin istifadəçisi «Dağ-mədən ayırması» aldıqdan iki il müddətində işə başlamamışdırsa «Dağ-mədən ayırması» aktı öz qüvvəsini itirir və *«Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə* qaytarılır.

Müəssisənin (fiziki şəxsin) ona verilmiş «Dağ-mədən ayırması»nı digər müəssisəyə (fiziki şəxsə) verməsi qadağandır.

Müəssisə konservasiya, yaxud ləğv olunduqdan sonra, işlərin dayandırıldığı günədək Yerin təkinin istifadə olunmuş sahəsinin markşeyder sənədlərinin əsli tələb olunan bütün məlumatlarla doldurulmuş şəkildə 10 gün müddətinə tabeçiliyində olduğu idarəyə təqdim etməlidir. Markşeyder planlarının, geoloji xəritələrin və kəsilişlərin surətləri isə qonşu müəssisələr də daxil olmaqla həmin müddətdə marağı olan təşkilatlara-müəssisələrə verilməlidir.

Müəssisənin konservasiyası və ya ləğv olunması aktı təsdiq olunduqdan 30 gün müddətinə «Dağ-mədən ayırması» aktı, geoloji və markşeyder sənədlərinin surətlərini almış müəssisənin iltizamının surətilə birlikdə *«Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə* qaytarılır.

Göstərilən vəzifələri yerinə yetirmədikdə faydalı qazıntı çıxaran müəssisənin rəhbərləri və vəzifəli şəxsləri, fiziki şəxslər *Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq məsuliyyət daşıyırlar.*

---

*2 nömrəli əlavə*

***Topoqrafik planın surətinin üzərindəki yazıların nümayəndəsi***

**Azərbaycan Respublikasının**
***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin***
**«___»__________________il tarixli __________nömrəli**
**dağ-mədən ayırması aktına əsasən**

______________________________________________________________

_________________________________________________________ yerləşən

*(ərazi vahidinin adı)*

______________________________________________________________

*(yatağın və faydalı qazıntının adı)*

istehsalı, çıxarılması üçün ____________________________________________

_________________________________________________________ verilib.

*(yer təki istifadəçisinin adı)*

Ayrılmış yatağın bu planda qeyd edilmiş sərhədləri hüdudunda aşağıdakılar işlənməlidir:

| Sıra №-si | Layın, damarın, linzanın, horizontun və sairənin adı | Sahə, ha | Uzunluğu | |
|---|---|---|---|---|
| | | | uzanması üzrə (m) | yatımı üzrə (m) |
| | | | | |
| | | | | |
| | | | | |

«Dağ-mədən ayırması»nı təsdiq edən akt *Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin* reyestrində «__»_____________199____ il ____№__________________ ilə qeydə alınmışdır.

***M.Y.*** ***Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq orqanının rəhbəri*** ______________________

*(imza)*

---

*3 nömrəli əlavə*

***Topoqrafik planın surətinin üzərindəki yazıların nümunəsi***

**Azərbaycan Respublikasının**
***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin***

**«__»______________ il tarixli ______ nömrəli**

**Dağ-mədən ayırması, yer təki sahəsindən** ________________________________________

_____________________________________________________________________________

*(dağ-mədən ayırması verilməsinin məqsədi)*

_________________________________________________ istifadə etmək üçün verilir.

_____________________________________________________________________________

*(dağ-mədən ayırması verilən yer təki istifadəçisinin adı)*

verilən dağ-mədən ayırması ________________________________________________

*(dağ-mədən ayırmasının yerləşdiyi ərazi vahidi və ünvan)*

_____________________________________________________ *ərazi vahidində* yerləşir.

Planda verilmiş dağ-mədən ayırması sərhədləri daxilində ____________________

_______________________________________________ künc nöqtələrilə nömrələnmiş

*(künc nöqtələrinin nömrələri)*

_____________________________________________________________________________

*(dağ mədən ayırmasının aşağı və yuxarı sərhədlərinin dərinliyi,*

_____________________________________________________________________________

*yeraltı boşluqların yer səthində proyeksiyalarının ayrı-ayrılıqda sahələri*

_____________________________________________________________________________

*göstərilməklə obyektləri sadalamalı)*

istifadəyə aid edilir.

«Dağ-mədən ayırması» Azərbaycan Respublikası *Ekologiya və Təbii Sərvətlər Nazirliyinin*

reyestr kitabında «__»________________il tarixdə ____ nömrə __________________ ilə qeydiyyata alınmışdır.

**M.Y.** ***Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq orqanının rəhbəri*** ______________________

*(imza)*

---

*4 nömrəli əlavə*

# Faydalı qazıntı yatağının işlənməsi üçün verilmiş «Dağ-mədən ayırması»nın uçota alınması (reyestr) kitabı

| **«Dağ-mədən ayırması»nın reyestr nömrəsi** | **«Dağ-mədən ayırması» aktının verildiyi tarix və müddəti** | **Faydalı qazıntı yatağının (layların və yatımların) adı** | **«Dağ-mədən ayırması»nın sahəsi, ha** | **«Dağ-mədən ayırması» hüdudlarında çıxarılmalı olan faydalı qazıntıların adı** | **Faydalı qazıntı ehtiyatlarının ______ tarixə olan DEK-nın (MEK) protokolunun nömrəsi və tarixi, miqdarı min $m^3$, min ton** | **«Dağ-mədən ayırması»nın yerləşdiyi yer (*ərazi vahidi*)** | **«Dağ-mədən ayırması» alan yer təki istifadəçilərinin adı, ünvanı** | **«Dağ-... ayırı... verilərl... tə... istifadə... ver... sənəd... siya...** |
|---|---|---|---|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |

**Qeyd:** Kitab səhifələnməli, qaytanlanmalı və *Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq orqanının* müvafiq müfəttişliyi tərəfindən möhürlənməlidir.

---

*5 nömrəli əlavə*

# Faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan məqsədlər üçün yer təki sahələrinə verilmiş «Dağ-mədən ayırması»nın uçot (reyestr) kitabı

| **Dağ-mədən ayırmasının reyestr** | **Dağ-mədən ayırmasının verildiyi** | **Dağ-mədən ayırmasının yerləşdiyi** | **Dağ-mədən ayırması alan yer təki** | **Dağ-mədən ayırmasının verilməsi** | **Dağ-mədən ayırmasının sahəsi və** | **Qeyd (müəssisənin konservasiya,** |
|---|---|---|---|---|---|---|

| nömrəsi | tarix | yer (*ərazi vahidi,* yataq sahəsi və s.) | istifadəçilərinin adı və ünvanı | məqsədi | həcmi (min $m^2$ və min $m^3$) | yaxud ləğv olunması haqda qeydiyyatı və dağ-mədən ayırması haqda səbəbləri göstərilməklə) |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**Qeyd:** Kitab səhifələnməli, qaytanlanmalı və möhürlənməlidir.

---

*6 nömrəli əlavə*

# Faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan məqsədlər üçün verilmiş yer təki sahələrinin qeydiyyatı kitabı

| Qeydiyyat nömrəsi | Qeydiyyat tarixi | Yer təki sahəsi verilən müəssisənin adı və onun verilməsinin məqsədi | Yer təkindən istifadə müddəti |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |

**Qeyd:** Kitab səhifələnməli, qaytanlanmalı və möhürlənməlidir.

---

*7 nömrəli əlavə*

# Faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan məqsədlər üçün verilmiş yer təki sahəsi barədə Məlumat kartoçkası

| Sıra №-si | Verilən məlumatların adı | İlkin məlumatlar, yaxud baş vermiş dəyişikliklər və əlavələr |
|---|---|---|
| 1. | Verilən dağ-mədən ayırmasının *yerləşdiyi ərazi vahidi* | |

| | | |
|---|---|---|
| 2. | Dağ-mədən ayırması alan yer təki istifadəçisi və onun ünvanı | |
| 3. | Dağ-mədən ayırmasının yerləşdiyi yer | |
| 4. | Dağ-mədən ayırması verilməsinin məqsədi | |
| 5. | Dağ-mədən ayırmasının sahəsi və həcmi min $m^2$ və min $m^3$ | |
| 6. | Xidmət heyətinin, yeraltı qurğuya gəlməsinin dövrülüyü | |
| 7. | Dağ-mədən ayırmasının verilmə tarixi və reyestr №-si | |
| 8. | Yeraltı qurğunun konservasiya, yaxud ləğv olunma tarixi və səbəbi | |
| 9. | Məlumat kartoçkasının doldurulma tarixi | |

***Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq orqanının rəhbəri*** __________________________

*(imza)*

---

*8 nömrəli əlavə*

| | | |
|---|---|---|
| k | o | d |

# Faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan məqsədlər üçün verilmiş yer təki sahəsinin uçot kartoçkası

| Sıra №-si | Verilən məlumatların adı | İlkin məlumatlar | Baş vermiş dəyişikliklər və əlavələr |
|---|---|---|---|
| 1. | Verilən dağ-mədən ayırmasının *yerləşdiyi ərazi vahidi* | | |
| 2. | Dağ-mədən ayırması alan yer təki istifadəçisi və onun ünvanı | | |
| 3. | Dağ-mədən ayırmasının yerləşdiyi yer | | |
| 4. | Dağ-mədən ayırmasının sahəsi və həcmi min $m^2$ və min $m^3$ | | |
| 5. | Yer təki sahəsinə verilmiş dağ-mədən ayırmasının məqsədi | | |
| 6. | Xidmət heyətinin, yeraltı qurğuya gəlməsinin dövrülüyü | | |
| 7. | Dağ-mədən ayırmasının verilmə tarixi və reyestr №-si | | |
| 8. | Yeraltı qurğunun konservasiyası və ləğvi barədə qeyd | | |
| 9. | Uçot kartoçkasının doldurulma (əlavələrin edilmə) tarixi | | |

***Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq orqanının rəhbəri*** __________________________

*(imza)*